AZƏRBAYCAN RESPUBLİKASI
SAMUX RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ
SƏRƏNCAMI

№ 74 «21» iyul 2023-cü il

Samux rayonunda şəhərsalma və tikinti fəaliyyəti sahəsində baş verən qanun pozuntularının vaxtında aşkar edilməsi və nəticələrinin aradan qaldırılması haqqında

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbərinin 24 iyun 2023-cü il tarixli 1-1-2/2-448/2023 nömrəli məktubunda şəhərsalma və tikinti fəaliyyəti sahəsində baş verən qanun pozuntularının vaxtında aşkar edilməsi və nəticələrinin aradan qaldırılması məqsədilə yerli icra hakimiyyətlərinə mövcud qanunvericilik aktlarına əsasən, yerli səviyyədə həyata keçirdiyi dövlət şəhərsalma nəzarətinin daha da gücləndirilməsi, qanunsuz tikinti işlərinin qarşısının alınması, habelə "Qeyri-yaşayış təyinatlı bəzi tikinti obyektlərinin istismarına icazə verilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 14 iyun 2023-cü il tarixli 2181 nömrəli Fərmanının icrası olaraq qeyri-yaşayış təyinatlı bəzi tikinti obyektlərinin sənədləşdirilmiş qaydada istismarına icazə verilməsi ilə bağlı bütün zəruri tədbirlərin görülməsi tapşırılmışdır.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, "Yerli İcra Hakimiyyətləri haqqında Əsasnamə"nin 3.11-ci bəndinə və "Dövlət Şəhərsalma Nəzarətinin həyata keçirilməsi qaydaları"na dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 24 noyabr tarixli 375 nömrəli Fərmanının 1.1 bəndinə müvafiq olaraq

**Q Ə R A R A A L I R A M:**

1. Yerli icra hakimiyyətlərinin mövcud qanunvericilik aktlarına əsasən, yerli səviyyədə həyata keçirdiyi dövlət şəhərsalma nəzarətinin daha da gücləndirilməsi, qanunsuz tikinti işlərinin qarşısının alınması, habelə qeyri-yaşayış təyinatlı bəzi tikinti obyektlərinin istismarına icazə verilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanları və Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbərinin 24 iyun 2023-cü il tarixli 1-1-2/2-448/2023 nömrəli məktubu rəhbərlik və icra üçün qəbul edilsin.
2. Rayon ərazisində şəhərsalma və tikinti fəaliyyəti sahəsində baş verən qanun pozuntularının vaxtında aşkar edilməsi və nəticələrinin aradan qaldırılması məqsədilə aşağıdakı tərkibdən ibarət komissiya yaradılsın.

2.1 Komissiyanın sədri:

Tahir Qarayev - Samux Rayon İcra Hakimiyyəti başçısının Birinci müavini

2.2 Komissiyanın üzvləri:

Arif Ağayev - Samux Rayon İcra Hakimiyyəti başçısının müavini – Sosial-İqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri

Kəmalə Xəlilova - Samux Rayon İcra Hakimiyyəti başçısının müavini – İctimai-siyasi və humanitar məsələlər üzrə iş şöbəsinin müdiri

Azər Nəsibov - Samux Rayon İcra Hakimiyyəti başçısı aparatının Hüquq şöbəsinin müdiri

Rövşən Qurbanov - Samux Rayon İcra Hakimiyyəti başçısı aparatının Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri

Qurban Həsənov - Samux Rayon İcra Hakimiyyəti başçısı aparatının Vətən müharibəsi iştirakçıları və şəhid ailələri işin təşkili şöbəsinin müdiri

Vüsal Əsədov - Samux Rayon İcra Hakimiyyəti başçısının aparatının Memarlıq vəTikinti şöbəsinin böyük məsləhətçisi

ƏSLİ İLƏ DÜZDÜR

Azərbaycan Respub. Samux rayon İcra Hakimiyyəti Başçısının Aparatı
SƏNƏDLƏR ÜÇÜN

Fəzail Mahmudov - İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Gəncə ərazi şöbəsi Torpaqların idarə edilməsi və istifadəsinə nəzarət sektorunun məsləhətçisi

Şakir Quluyev - Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin Qərb Regional Tikinti Müfəttişliyinin müfəttişi

3. Dövlət şəhərsalma nəzarəti çərçivəsində aparılan tikinti işlərinin qarşısının alınması məqsədilə rayon İcra Hakimiyyətinin işçilərindən məsul şəxslər təyin edilsin, onların əlaqə nömrələri və elektron poçt ünvanları RİH-nın internet səhifəsində yerləşdirilsin, həmin işçilər arasında inzibati ərazi dairələrinin bölgüsü aparılsın. (Əlavə 1)

4. Tapşırılsın təyin olunmuş məsul şəxslərə və İHB-ı aparatının Memarlıq və tikinti şöbəsinə, aşkar edilmiş qanunsuz tikinti işlərininin dərhal dayandırılması barədə sifarişçiyə yazılı qaydada tövsiyyə etsinlər və müvafiq məlumatları Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinə, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə və İqtisadiyyat Nazirliyi yanında ƏMDX-nə göndərilməsini təmin etsinlər.

5. Tapşırılsın komissiyaya;

5.1 "Dövlət şəhərsalma nəzarətinin həyata keçirilməsi Qaydaları"na əsasən, qanunsuz inşa edilən tikinti obyetləri ilə bağlı Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən rayon icra hakimiyyətinə daxil olan yazılı göstərişlərin icrası tam təmin olunsun.

5.2 "Qeyri-yaşayış təyinatlı bəzi tikinti obyektlərinin istismarına icazə verilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanının 4-cü və 8-ci hissələrində, 1.7-ci və 1.8-ci bəndlərində, 1.1.5-ci yarımbəndində göstərilən tapşırıqlara xüsusi diqqət yetirilsin və onların icrasının müəyyən olunmuş müddətlərdə təmin edilsin.

6. Rayonun şəhər, qəsəbə və kənd İƏD-i üzrə nümayəndələrinə tapşırılsın ki;

6.1 İnzibati ərazilərində icazə sənədi olmadan aparılan bütün tikinti işlərini birmənalı olaraq dayandırsınlar və hər ayın sonuncu iş günü bununla bağlı rəsmi arayış təqdim etsinlər.

6.2 Ərazilərində qanunsuz tikinti işlərinin qarşısının alınması istiqamətində və qanunsuz tikinti işlərinin aparılmasının hüquqi nəticələri ilə bağlı əhali arasında mütəmadi olaraq təxirəsalınmaz marifləndirici tədbirlər həyata keçirsinlər.

6.3 Ərazilərində Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəllesinə əsasən tikintisinə icazə tələb olunan, lakin belə icazə alınmadan inşa edilmiş və ya tikilməkdə olan, habelə barəsində məlumatlandırma icraatı tətbiq olunan, lakin tikinti işlərinin başlanmasına həmin Məcəllənin 80.4-cü maddəsində nəzərdə tutulmuş əsas olmadan inşa edilmiş və ya tikilməkdə olan tikintilərin komunikasiya xətlərinə qoşulması üçün arayışların verilməsini dayandırsınlar.

6.4 İnzibati ərazilərində 2023-cü il iyun 1-dək qanunsuz olaraq tikilmiş və inşası tam başa çatmış "Qeyri-yaşayış təyinatlı bəzi tikinti obyektlərinin istismarına icazə verilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 14.06.2023-cü il tarixli 2181 nömrəli Fərmanının icrası ilə əlaqədar tikinti sahiblərinə obyektlərinin sənədləşdirilməsi üçün Fövqəladə Hallar Nazirliyinin Gəncə Regional Mərkezinə müraciət etmələri barədə təxirəsalınmaz geniş təbliğat işləri aparsınlar.

7. RİH başçısı aparatının informasiya təminatı və təhlili sektoruna tapşırılsın ki, rayonun şəhər, qəsəbə və kənd inzibati ərazi dairələrində qanunsuz tikinti işlərinin qarşısının alınması ilə bağlı ərazilər üzrə rayon icra hakimiyyəti başçısı aparatının məsul şəxslərinin siyahısını rayon icra hakimiyyətinin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.

8. RİH başçısı aparatının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdirinə tapşırılsın ki, sərəncamın surətini aparatın müvafiq bölmələrinə, şəhər, qəsəbə və kənd inzibati ərazi dairəsi üzrə nümayəndələrinə göndərilməsini təmin etsin.

9. Görülmüş işlər barədə 2024-cü il yanvarın 1-dən etibarən hər altı aydan bir Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına hesabat göndərilməsi təmin olunsun.

10. Sərəncamın icrası Samux Rayon İcra Hakimiyyəti başçısının Birinci müavini Tahir Qarayevə həvalə edilsin.

ƏSLİ İLƏ DÜZDUR

**İcra Hakimiyyətinin başçısı:** **Alı Qocayev**

Samux rayon İcra Hakimiyyəti Başçısının Aparatı • Azərbaycan Respub. • SƏNƏDLƏR ÜÇÜN